**AZƏRBAYCAN RESPUBLİKASI**
**MİLLİ BANKI**

AZ1014, Bakı şəhəri, R. Behbudov küç., 32
Tel.:493 11 22, faks: 493 55 41
E-mail: mail@nba.az

07 iyun 2006 il

№ 16/28-13

Azərbaycan Respublikasında
fəaliyyət göstərən
bütün banklara

Çirkli pulların leqallaşdırılması məqsədilə bank sferasından istifadənİn qarşısının alınmasının əsas istiqamətlərini müəyyənləşdirən beynəlxalq prinsiplərin milli qanunvericilik əsasında Azərbaycan bank sistemində tətbiqi daim Milli Bankın diqqət mərkəzində saxlanılır.

Bu məqsədlə Maliyyə Tədbirlərİ üzrə İşçi Qrupunun (FATF) tövsiyələrində əks etdirilmiş şərtlər müştərilərin və əməliyyatların identifikasiyası, əməliyyatlar üzrə sənədlərin saxlanmasına dair müvafiq normativ sənədlər hazırlanmışdır. Bundan əlavə, banklara sağlam xarakteri şübhə doğuran əməliyyatların aşkar edilməsi kontekstində daxili nəzarət sistemlərinin yaradılması, bu sistemlərin yaradılması zamanı "Volfsberq prinsipləri"nin əsas götürülməsi barədə göstərişlər verİlmişdir.

Milli Bankın birbaşa iştirakı ilə qeyri-qanuni yolla əldə olunmuş gəlirlərin maliyyə sektoru vasitəsilə leqallaşdırılmasının qarşısının alınması məqsədilə mövcud qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atılmış, bir sıra nəticələr əldə edilmişdir.

Məlumunuz olduğu kimi, Azərbaycan Respublikası Prezidentinin 24 iyun 2005-ci il Sərəncamı ilə Mülki Məcəlləyə (MM) dəyişikliklər və əlavələr edilmişdir. Belə ki, MM-ə əlavə olunmuş 969.2.3-cü maddəyə əsasən, əgər bank hesabı müqaviləsində ayrı qayda nəzərdə tutulmamışdırsa və bank hesabı sahibinin bank hesabından qeyri-leqal məqsədlər üçün istifadə etməsi sübut olunarsa, bank hesabı müqavilesİ məhkəmənin qərarı ilə ləğv oluna bilər.

Qeyd olunanları nəzərə alaraq, bank hesabı müqaviləsində müqavilənin bank tərəfindən birtərəfli ləğvinə əsas yaradan hallardan biri kimi müştərinin, benefisiarın və ya həyata keçirilən əməliyyatın pulların yuyulması və yaterrorçuluğun maliyyələşdirilməsi ilə hər hansı şəkildə əlaqəli olduğuna dair əsaslı şübhələrin mövcudluğunun qeyd edİlməsi Sizə tövsiyə olunur. Bank hesabı müqaviləsində belə şərtin qeyd olunması hesabın ləğvi üçün əlavə məhkəmə prosedurlarının qarşısını almaqla yanaşı, bankı potensial hüquqi risklərdən qorumuş olardı.

Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 12 may 2006-cı il tarixli Sərəncamı ilə Cinayət Məcəlləsinə (CM) "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma" maddəsi (Maddə 193-1) əiavə edilmişdir.

Sözügedən maddənin milli qanunvericilikdə təsbit edilməsi pulların yuyulması anlayışının beynəlxalq tələblərə uyğunlaşdırılmasına, pulların yuyulması hüquqpozmasının CM-də müəyyənləşdirilmiş bütün predikatİv hüquqpozmalara şamil edilməsinə imkan vermişdir.

CM-ə bu dəyişiklik "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 42-ci maddəsinin tələblərini nəzərə alaraq, banklardan müştərilər tərəfindən qeyri-qanuni gəlirlərin bank sistemi vasitəsilə yuyulması cəhdlərinin aşkar edilməsi üçün, daha təkmil və operativ daxili nəzarət sistemlərinin tətbiqini tələb edir.

Bununla əlaqədar bank rəhbərlərinə tapşırılır ki, həyata keçirilən bütün əməliyyatların sağlam xarakterinə nəzarətİn daha da gücləndirilməsi məqsədilə bankdaxili nəzarət sistemlərinin yenidən qiymətləndirilməsini və bu sahədə zəruri tədbirlərin görülməsini təmin etsinlər.

Onu da nəzərinizə çatdırırıq ki, nəzarət sistemlərinin bankın gündəlik fəaliyyətində effektlİ tətbiqinə görə bank rəhbərləri şəxsən məsuliyyət daşıyırlar.

**Baş direktor** **R. Aslanlı**